**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

***Əlyazması hüququnda***

**KƏMALƏ RAUF qızı QULİYEVA**

# AZƏRBAYCAN VOKAL SƏNƏTİNİN İNKİŞAFINDA ŞÖVKƏT ƏLƏKBƏROVANIN ROLU

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

*Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **Cəmilə İsmayıl qızı Həsənova**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Sevda Firudin qızı Qurbanəliyeva**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Aytən Rauf qızı Babayeva**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrası**

Müdafiə «___» may 2018-ci ildə saat 12:00-da Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» aprel 2018-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.MƏMMƏDOVA**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycanın xalq artisti, görkəmli müğənni Şövkət Ələkbərova XX əsrin ikinci yarısında Azərbaycan musiqi mədəniyyətində, ifaçılıq sənətində özünəməxsus yeri olan parlaq simalardan biridir. Təkrarolunmaz, gözəl tembrli, məlahətli səsi, yüksək ifaçılıq istedadı, böyük sənətkarlığı ilə Şövkət Ələkbərova həm xalqımız arasında, həm də dünyanın bir çox ölkələrində dinləyici sevgisi qazanmışdır.

Ş.Ələkbərova Azərbaycan musiqi ifaçılığı sənətində yeni səhifə açmış müğənnidir. Onun bənzərsiz ifaçılıq üslubuna və səhnə mədəniyyətinə malik olması, muğam və xalq mahnılarını, bəstəkarların mahnı və romanslarını ifa edərək milli musiqi irsimizin sərvətinə çevirməsi, müəllim kimi müğənnilər nəsli yetişdirməsi – bütün bunlar müğənninin sənətkarlığını dərindən və hərtərəfli səciyyələndirilməklə yanaşı, Ş.Ələkbərovanın yaradıcılığının tədqiqi zəruriyyətini önə çəkir.

Şövkət Ələkbərovanın yaradıcılıq simasından danışarkən, ilk növbədə, onun repertuarını, ifaçılıq üslubunun xüsusiyyətlərini, fəaliyyət sahələrini xarakterizə etmək lazımdır. Bu baxımdan Ş.Ələkbərovanın yaradıcılığında xalq mahnılarının, Azərbaycan bəstəkarlarının mahnı və romanslarının ifası qeyd olunmalıdır. Zəngin repertuar seçimi, təfsir xüsusiyyətlərinə ciddiliklə yanaşma Ş.Ələkbərovanın sənətkarlığını xarakterizə edən cəhətlərdir.

Onun yaradıcılığında və ifaçılıq üslubunda musiqi mədəniyyətinin bir neçə təbəqəsinin – xalq musiqisinin, muğamın və bəstəkar yaradıcılığının müxtəlif üslub təmayüllərinin – xalq və estrada üslubunun qovuşdurulmasını müşahidə etmək olar. Hər bir istiqamətdə müğənni görkəmli nailiyyətlər əldə etmiş və musiqi ifaçılığı sənətini zənginləşdirmişdir. O, həmçinin, gözəl pedaqoq olmuşdur və bir sıra müğənnilər yetişdirmişdir, onun ifaçılıq ənənələri bu günkü müğənnilər üçün gözəl örnəkdir.

Bu baxımdan Şövkət Ələkbərovanın yaradıcılıq yolunu, konsert və müəllimlik fəaliyyətini araşdıraraq, onun müğənni kimi Azərbaycan musiqi mədəniyyətinin, bilavasitə vokal sənətinin inkişafındakı rolunu, muğam və xalq mahnılarının, eləcə də bəstəkar mahnılarının ifaçılıq üslubunu araşdırmaq musiqişünaslıqda mühüm əhəmiyyət kəsb edən mövzudur.

Bütün bu məsələlərin araşdırılması Şövkət Ələkbərovanın sənətkarlığının, ifaçılıq üslubunun xüsusiyyətlərinin, onun Azərbaycan müğənnilik sənətinə gətirdiyi yeniliklərin, milli musiqi mədəniyyətində tutduğu rolun üzə çıxarılmasına yol açır və mövzunun aktuallığını şərtləndirir.

**Mövzunun işlənmə dərəcəsi.** Şövkət Ələkbərovanın yaradıcılığı haqqında mətbuat səhifələrində, elmi-populyar nəşrlərdə müxtəlif həcmli və müxtəlif səpkili yazılar dərc olunmuşdur. Ş.Ələkbərovanın sənəti ilə təmasda olmuş bəstəkarların və həmkarlarının xatirələri, müğənninin müsahibələri, onun tərcümeyi-halını, yaradıcılığını, repertuarını və ifaçılıq portretini təcəssüm etdirən publisistik məqalələr bu qəbildəndir.

Xüsusilə Ş.Ələkbərovanın yaradıcılığına mütəmadi müraciət edən müəlliflərdən publisist yazıçı M.Çəmənlinin[1] və G.Qurbanovanın[2] kitab və məqalələrində müğənninin həyat və yaradıcılıq yolu maraqlı tərzdə təcəssüm olunmuşdur. Bu müəlliflər sənədlər və xatirələr əsasında Şövkət Ələkbərovanın yaradıcılıq portretini yaratmağa müvəffəq olmuşlar.

Ş.Ələkbərovanın vokal sənətindəki xidmətlərinin araşdırılması bilavasitə musiqi mədəniyyətimisin tarixi inkişaf yolunun, bəstəkar yaradıcılığının, mahnı janrının və ifaçılıq sənətinin inkişafı ilə paralel aparılmışdır. Bu istiqamətdə tədqiqat apararkən, biz Azərbaycan musiqişünaslarının tarixi və nəzəri əsərlərinə - monoqrafiya və məqalələrinə müraciət etmişik.

Dahi bəstəkar və musiqişünas, Azərbaycan bəstəkarlıq məktəbinin banisi Ü.Hacıbəylinin Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı roluna və onun bu istiqamətdə proqram əhəmiyyətli tövsiyələrinə, musiqi əsərlərinə və elmi məqalələrinə[3] xüsusi diqqət yetirmişik. Eyni zamanda, Azərbaycan vokal sənətinin banisi Bülbülün məqalə və məruzələrinə[4] müraciət edərək, milli vokal ifaçılığı sənətinin inkişaf yollarını və nəzəri əsaslarını öyrənməyə çalışmışıq.

Dissertasiyada özünü göstərən istiqamətlərdən biri Şövkət Ələkbərovanın ifasında xalq mahnıları, muğam və zərbi-muğamların araşdırılmasıdır. Bununla bağlı müraciət etdiyimiz mənbələrdə - M.İsmayılov[5], Ə.Bədəlbəyli[6], R.Zöhrabov[7] və digər musiqişünas-alimlərinin tədqiqatlarında şifahi

---

[1]Çəmənli M.M. Şövkət Ələkbərova. Bakı, İşıq, 1989.
[2]Qurbanova G.Ş. Həmişə yaradasan, həmişə yaşadasan... onun ölməz siması... "Musiqi dünyası" jurnalı. № 1-2 (15), 2003. s. 46-54.
[3]Hacıbəyov Ü.Ə. Seçilmiş əsərləri. Bakı, 1985..
[4]Bülbül. Seçilmiş məqalə və məruzələri. AEA-nın nəşri, B., 1968.
[5]İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları.B., İşıq, 1984.
[6]Bədəlbəyli Ə.B. İzahlı-monoqrafik musiqi lüğəti. B., Elm, 1969.
[7]Zöhrabov R.F. Muğam. B., Azərnəşr, 1991. 218s.; Zərbi-muğamlar. Bakı, 2004; Зохрабов Р.Ф. Азербайджанские тесинфы. М., 1983.

ənənəli professional musiqinin tarixi və nəzəri məsələlərinin araşdırılması ilə yanaşı, ifaçılıq məsələlərinə də diqqət yetirilir.

Tədqiqatımızın əsas istiqamətlərindən biri Azərbaycanda mahnı janrının inkişaf yollarının araşdırılması və ifaçılıq sənətinə təsiri ilə bağlıdır. Bu baxımdan biz musiqişünas-alimlər İ.Əfəndiyevanın[8], C.Mahmudovanın[9], bəstəkar C.Quliyevin[10] monoqrafiya və məqalələrindən bir mənbə kimi istifadə olunmuşdur.

Azərbaycan musiqişünaslığında görkəmli müğənnilərin yaradıcılığı və vokal sənətinin inkişaf yollarının araşdırılması ilə bağlı daha bir neçə tədqiqatları – məqalələri və dissertasiyaları qeyd etməliyik. G.Abdullazadənin[11] məqalələri Azərbaycanın görkəmli müğənnilərinin yaradıcılıq üslubunun səciyyələndirilməsi baxımından dəyərli fikirlərlə zəngindir. N.Hüseynovanın[12], M.Babayevanın[13] tədqiqatları Azərbaycanda vokal sənətinin inkişafı məsələləri işıqlandırılmışdır.

Azərbaycanın görkəmli xanəndələrinin və opera-konsert müğənnilərinin yaradıcılıq yolu və ifaçılıq sənətinin xüsusiyyətləri ilə bağlı tədqiqatları da qeyd edə bilərik. Musiqişünas-alimlər Ə.Bədəlbəylinin[14], L.Karagiçeva-

---

[8]Эфендиева И.М. Азербайджанская советская песня. Б., Язычы, 1981.; Гордость азербайджанского народа. Б., Шарг-Гарб, 1996.

[9]Mahmudova C.E. Mahnının qoşa qanadı – poeziya və musiqi. B., 2013.

[10]Quliyev C.R. Azərbaycan mahnısı: yol ayrıcında. // "Musiqi dünyası" jurnalı, № 1, 1999. s.76-78.

[11]Abdullazadə G.A. Müslüm Maqomayev – estrada səhnəsinin sönməz ulduzudur. "Musiqi dünyası" jurnalı, № 3-4(13), 2002. s. 106-108.; Həyatımızın tarixi və yaradıcılıq səhifələri. Xuraman Qasımovanın 30 illik sənət yolları.- "Musiqi dünyası" jurnalı, № 1-2(35), 2008, s.127-130.

[12]Hüseynova N.S. Azərbaycan opera sənətində milli vokal məktəbinin təşəkkülü və inkişafı. Sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyasının Avtoreferatı. Bakı, 2011.; Azərbaycanda vokal məktəbinin yaranmasında Bülbülün rolu, "Musiqi dünyası" jurnalı, № 3-4 (37) 2008, s.176-177.; Azərbaycanda opera ifaçılığı sənətinin inkişaf istiqamətləri. "Musiqi dünyası" jurnalı, № 1-2 (39) 2009, s.153-157.

[13]Babayeva M.Ş. Rəşid Behbudovun ifaçılıq üslubu milli və klassik vokal ənənələrinin sintezi kontekstində. Sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyasının Avtoreferatı. Bakı, 2011.; Rəşif Behbudovun ifaçılıq üslubuna dair. "Musiqi dünyası" jurnalı, № 1-2 (35) 2008, s.190-192.; Rəşid Behbudov və Tofiq Quliyev. "Musiqi dünyası" jurnalı, № 3-4 (37) 2008, s.172-175.

[14]Bədəlbəyli Ə.B. İzahlı-monoqrafik musiqi lüğəti. B., Elm, 1969.

nın[15] Z.Səfərovanın[16], R.Məmmədovanın[17], tədqiqatçılar V.Məmmədovun[18], F.Şuşinskinin[19], S.İsmayılovanın[20], N.İsmayılzadənin[21], Z.Qafarovanın[22] və b. kitablarını və tədqiqat xarakterli məqalələrini qeyd edə bilərik.

Ensiklopedik mənbələrdə Azərbaycan vokal sənətinin ustad sənətkarları haqqında zəngin məlumat öz əksini tapmışdır. Vokal sənətinin öyrənilməsində və ifaçıların səsyazıları irsinin qorunmasında Heydər Əliyev Fondu tərəfindən hazırlanan "Azərbaycan muğamı" tədris vəsaiti, "Qarabağ xanəndələri", "Muğam ensiklopediyası"[23] kimi CD-DVD albomlar və zəngin materialları əhatə edən nəşrlər çox qiymətlidir və bütün bunlar müasir dövrdə muğam sənətinin tədqiqi üçün əsas mənbəyə çevrilmişdir

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, təqdim olunan bu iş musiqişünaslıqda görkəmli müğənni Şövkət Ələkbərovanın özünəməxsus və orijinal üslubunun öyrənilməsinə həsr olunan dissertasiya səviyyəsində işlənmiş ilk xüsusi elmi tədqiqatdır.

Dissertasiyada, ilk dəfə olaraq, Ş.Ələkbərovanın ifaçılıq üslubu xalq və estrada musiqi mədəniyyətinin inkişafı kontekstində təhlil olunur. Bu tədqiqatda Ş.Ələkbərovanın repertuarı araşdırılmış, onun ifaçılıq üslubunun əsas istiqamətləri müəyyən olunmuşdur.

Ş.Ələkbərovanın çoxcəhətli yaradıcılığının Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rolu öyrənilmişdir.

---

[15]Карагичева Л.В. Мастера азербайджанского музыкального театра. // Азербайджанская музыка. Сборник статей. М., 1961, с.295-373.

[16]Səfərova Z.Y. Şərq musiqisinin peyğəmbəri. B., 2011.

[17]Məmmədova R.A. Hüseynqulu Sarabski. // «Musiqi dünyası», № 3-4 (25), 2005. s.210-212

[18]Məmmədov V.M. Muğam, söz, ifaçı. B., 1981.

[19]Şuşinski F. Azərbaycan xalq musiqiçiləri. Bakı, Yazıçı, 1985.

[20]İsmayılova S.Ə. XX əsrin əvvəlində qadın xanəndələrinin yaradıcılığı. // «Musiqi dünyası», № 1-2(35), 2008, s. 144-145.

[21]İsmayılzadə N. Azərbaycanın opera müğənnisi Fatma Muxtarova. // «Musiqi dünyası», № 3-4(15), 2003. s. 165-168.

[22]Qafarova Z. Korifey opera sənətkarımız Firəngiz Əhmədova (Müğənninin 80 illiyinə həsr olunur). // «Musiqi dünyası», № 3-4(37), 2008, s.51-53.

[23]Muğam ensiklopediyası. Azərbaycan xanəndələri. Diskoqrafiya. 5 CD albom: I.Qarabağ xanəndələri; II.Muğam dəstgahları; III.Gənc xanəndələr; IV.Ustad xanəndələr-I (kişi xanəndələr); V.Ustad xanəndələr-II (qadın xanəndələr). // Heydər Əliyev Fondu (redaksiya heyətinin sədri, baş redaktor M.Əliyeva). «Musiqi Dünyası». Bakı, 2007.

Müğənninin xalq mahnı və muğam ifaçılığı, eləcə də müxtəlif üslublu bəstəkar mahnılarının ifası istiqamətində Ş.Ələkbərovanın vokal sənətinə gətirdiyi yeniliklər, yaratdığı ənənələr üzə çıxarılmış və araşdırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Ş.Ələkbərovanın çoxcəhətli yaradıcılığının öyrənilməsindən, onun ifaçılıq üslubunun araşdırılmasından, özünəməxsus cəhətlərin üzə çıxarılmasından ibarətdir. Dissertasiyanın əsas məqsədindən irəli gələrək, aşağıdakı vəzifələrin həyata keçirilməsi qarşıya qoyulur:

- Ş.Ələkbərovanın həyat və yaradıcılıq yolunun milli musiqi mədəniyyətinin inkişafı kontekstində öyrənilməsi və müğənninin yaradıcılığının əsas istiqamətlərinin üzə çıxarılması;
- Ş.Ələkbərovanın ifaçılıq üslubunda qarşılıqlı əlaqədə özünü göstərən xalq və estrada üslublarının səciyyələndirilməsi;
- Ş.Ələkbərovanın ifasında xalq mahnılarının, muğamların və zərbi-muğamların təfsir xüsusiyyətlərinin öyrənilməsi;
- Ş.Ələkbərovanın ifasında bəstəkar mahnılarının və müxtəlif janrlı vokal əsərlərin təfsir xüsusiyyətlərinin öyrənilməsi.

**Tədqiqatın metodu və metodoloji əsası.** Tədqiqatın aparılması bir neçə istiqaməti əhatə etdiyinə görə, burada tarixi və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Azərbaycan musiqişünaslarının musiqi tarixinin, muğam sənətinin, bəstəkar yaradıcılığının tədqiqinə həsr olunmuş tədqiqatları dissertasiyada əsas metodoloji mənbəyə çevrilmişdir.

Bu baxımdan Azərbaycan musiqişünaslarının Üzeyir Hacıbəylinin, Bülbülün, Əfrasiyab Bədəlbəylinin, Elmira Abasovanın, Gülnaz Abdullazadənin, Zemfira Abdullayevanın, İmruz Əfəndiyevanın, Fərəh Əliyevanın, Cəmilə Həsənovanın, Şəhla Həsənovanın, Gülzar Mahmudovanın, Ceyran Mahmudovanın, Leyla Məmmədovanın, Solmaz Qasımovanın, Zemfira Qafarovanın, Zemfira Səfərovanın, Ramiz Zöhrabovun və başqalarının tədqiqatlarında öz əksini tapmış elmi müddəalarına və fikirlərinə istinad olunmuşdur.

**Tədqiqatın obyektini** müğənni Şövkət Ələkbərovanın yaradıcılığının öyrənilməsi, onun ifaçılıq üslubunun əsas xüsusiyyətlərinin tədqiqi məsələləri təşkil edir.

**Tədqiqatın predmeti** Ş.Ələkbərovanın muğamların və zərbi-muğamların, xalq və bəstəkar mahnılarının təfsiri məsələlərinin araşdırılmasından ibarətdir.

**Tədqiqatın materialları.** Dissertasiyada Ş.Ələkbərovanın lent yazılarından, CD-disklərdə toplanmış səsyazılarından, bəstəkar əsərlərinin, xalq mahnılarının və zərbi-muğamların çap olunmuş not yazılarından istifadə

olunmuşdur. Bizim tədqiqatımız üçün "Muğam ensiklopediyası" nəşri xüsusi əhəmiyyətə malikdir. Burada Şövkət Ələkbərovanın ifasında muğamların ifası ilə bağlı nadir səsyazıları öz əksini tapmışdır. Həmçinin, Ş.Ələkbərovanın çox saylı səs yazılarında onun ifa etdiyi bəstəkar mahnıları da tədqiqatın materialları sırasında qeyd edilməlidir.

**Dissertasiyanın elmi-praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyanın materiallarından və nəticələrindən Azərbaycan musiqi mədəniyyətinin öyrənilməsilə bağlı elmi tədqiqatlarda, ifaçılıq problemlərinin araşdırılmasında, vokal sənətinin tədrisi prosesində istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmiş və müzakirə edilmişdir. Dissertasiya mövzusu üzrə müəllifin bir sıra elmi məqalələri dərc olunmuşdur.

**Dissertasiyanın strukturu:** Dissertasiya giriş, 3 fəsil, 6 yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat, saytoqrafiya və notoqrafiyadan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli "XX əsr Azərbaycan musiqi mədəniyyətində Şövkət Ələkbərovanın yeri və rolu" adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. I fəslin birinci yarımfəslində - 1.1. "XX əsr musiqi mədəniyyətində vokal sənətinin inkişaf xüsusiyyətləri" nəzərdən keçirilir.**

Azərbaycanda vokal sənətinin kökləri xalq musiqisi, aşıq və muğam sənəti ilə bağlı olmuşdur. Məlumdur ki, qədim dövrdən XX əsrə qədər milli musiqi mədəniyyəti şifahi ənənələr əsasında inkişaf etmiş, Azərbaycanın zəngin xalq musiqisi, aşıq yaradıcılığı və muğam sənəti təkmilləşərək, yüksək zirvəyə çatmışdır. Şifahi ənənəli musiqi irsi öz dəyərini və əhəmiyyətini bu günə kimi saxlayaraq, Azərbaycan musiqi mədəniyyətinin bünövrəsini təşkil edir. XX əsrin əvvəllərində məhz bu bünövrə əsasında Azərbaycanda bəstəkarlıq sənəti inkişaf etməyə başlamışdır.

Azərbaycan bəstəkarlıq məktəbinin banisi, dahi bəstəkar və musiqişünas Üzeyir Hacıbəylinin yaradıcılıq fəaliyyəti ilə milli musiqi mədəniyyətinin inkişafının yeni tarixi dövrünün əsası qoyulmuşdur. Bu dövrdən Azərbaycan musiqisinə Avropa mədəniyyətinin təsiri nəticəsində opera, musiqili komediya, daha sonralar simfonik musiqi, kamera-instrumental və vokal musiqi janrları daxil olmuşdur. Bəstəkar yaradıcılığı ilə yanaşı,

musiqi ifaçılığı - Qərb tipli vokal və instrumental ifaçılıq da geniş inkişaf etmiş, görkəmli sənətkarlar nəsli yetişmişdir.

1920-ci illərdən başlayaraq, Azərbaycanda musiqi təhsili sisteminin yaranması, Azərbaycan Dövlət Konservatoriyasının təşkil olunması sayəsində Qərb klassik opera ənənələrinin və vokal ifaçılığının mənimsənilməsi prosesi genişləndi. Bəstəkar yaradıcılığında meydana gələn vokal musiqi janrlarının – mahnı və romansların, eləcə də vokal-instrumental əsərlərin xalqa tanıdılmasında həm muğam, həm də klassik vokal ifaçılarının əməyi olmuşdur. Bu baxımdan, kamera-vokal sahənin inkişafında da şaxələnmə özünü göstərir: klassik vokal, muğam, xalq və estrada üslubunda ifaçılıq sahələri ayrılmışdır. Bütün bu sahələr üzrə ifaçılar yetişmişdir.

Görkəmli müğənni Bülbül Azərbaycan vokal ifaçılığı məktəbinin banisi hesab olunur. Onun yaradıcılığı milli musiqi ifaçılığının yeni mərhələsi kimi dəyərləndirilir. Bülbül öz yaradıcılığında Şərqin və Qərbin professional oxuma üslublarının, yəni muğam və aşıq oxuma üslubu, xalq sənətkarlığı ilə vokal ifaçılığının vəhdətinə nail olmuş və Azərbaycanda ilk olaraq, professional vokal ifaçılığının təməlini qoymuşdu. Bülbülün bir müğənni kimi öz yaradıcılığında Şərq oxuma üslubu ilə Qərb oxuma üslubunu qovuşdurması sonradan Azərbaycan vokal ifaçılığının səciyyəvi cəhətinə çevrildi.

Azərbaycan musiqi mədəniyyətində muğam ifaçılarını xanəndə, digər vokal ifaçıları – opera ifaçılarını, kamera-konsert sahədə klassik və ya xalq üslubunda oxuyan ifaçıları müğənni adlandırırlar. Fikrimizcə, bu iki söz eyni mənanı verməsinə baxmayaraq, ifaçılıq üslublarını fərqlənfirmək üçün tətbiq edilir.

Azərbaycan vokal musiqisində kamera-konsert ifaçılığında üslub xüsusiyyətlərinə görə bölünmə özünü göstərir. Belə ki, 1920-30-cu illərdən başlayaraq, muğam sənəti üzərində yetişmiş, lakin xalq və bəstəkar mahnılarının ifaçılığına üstünlük verən müğənnilər nəsli yetişmişdir. Bu da həmin illərdə kütləvi bəstəkar mahnılarının yaranması ilə bağlı olmuşdur. Başqa sözlə desək, o dövrdə yaranmış bəstəkar mahnıları artıq öz ifaçılarını və təbliğatçılarını da önə çəkmişdir.

XX əsrin ortalarından və ikinci yarısından əsasən Avropa və rus-sovet musiqisinin təsiri altında meydana gəlmiş təmayüllər Azərbaycan musiqi mədəniyyətində də öz əksini tapır. Bu baxımdan estrada konsert janrlarının bəstəkar yaradıcılığına daxil olması və bu sahədə ifaçıların formalaşması qeyd olunmalıdır. Xüsusilə 1940-cı illərdə bəstəkar Tofiq Quliyevin rəhbərliyi ilə Azərbaycanda estrada orkestrinin yaranmasından sonra bu proses daha geniş vüsət aldı.

Bu dövrdə Azərbaycan konsert səhnəsinə gələn Rəşid Behbudovun, Şövkət Ələkbərovanın və digər müğənnilərin fəaliyyəti vokal sənətinin hüdudlarını çox genişləndirdi. Bu sənətkarların simasında vokal sənətində yeni üslub xüsusiyyətlərinin meydana gəldiyini qeyd etmək lazımdır. Vokal sənətində səsin keyfiyyətinin və texniki imkanlarının rolunu nəzərə alaraq, qeyd etməliyik ki, ifaçılar səs aparatına görə fərqlənir və müxtəlif üslublarla bağlıdır. Rəşid Behbudov vokal sənətində klassik oxuma texnikasına əsaslanaraq, özünəməxsus estrada və xalq üslubunun vəhdətini yaratmışdı, Şövkət Ələkbərova isə muğam oxuma texnikasına əsaslanaraq, xalq və estrada üslubunu öz ifaçılığında inkişaf etdirmişdir. Hər iki sənətkar vokal sənətində özünəməxsus yol açmışlar.

XX əsr Azərbaycan musiqi mədəniyyətində vokal sənətinin oxuma üslubuna görə bir neçə sahələr üzrə inkişaf etdiyini müşahidə edirik. Bu istiqamətlər vokal sənətinin görkəmli ustad sənətkarların yaradıcılığında yüksək zirvəsinə çatmış və musiqi mədəniyyətində yeni istiqamətlər yaradaraq, öz davamını yeni ifaçılar nəslinin fəaliyyətində tapmışdır.

Birinci istiqamət Azərbaycanın qədim və ənənəvi vokal ifaçılıq növləri olan aşıq sənəti və muğam ifaçılığı sahələridir ki, Şərq mədəniyyətinin ənənələri üzərində formalaşmışdır və xalq musiqisi üslubunda oxuma sənətinin əsasını təşkil edir. Bu istiqamət daxilində aşıq, xanəndəlik (muğam ifaçılığı) və müğənnilik (xalq və bəstəkar mahnılarının ifaçılığı) sahələri həm müstəqil fəaliyyət göstərən, həm də qarşılıqlı əlaqəli sənət sahələri kimi xarakterizə oluna bilər.

İkinci istiqamət klassik opera və kamera-vokal sahələrini özündə cəmləşdirən vokal oxuma istiqamətidir. Bu istiqamət oxuma texnikasına görə fərqlənir və vokal sənətinin müstəqil istiqaməti kimi Qərb musiqi ənənələri üzərində formalaşmışdır, ciddi klassik vokal üslub xüsusiyyətlərini davam etdirir. Klassik vokalçı müğənnilərin repertuarı Avropa və Azərbaycan bəstəkarlarının əsərlərindən - opera ariyalarından və romanslardan ibarətdir (Azərbaycan, italyan, rus və digər xalq mahnılarına da müraciət olunur).

Üçüncü istiqamət estrada sahəsi ilə bağlıdır, XX əsrin kütləvi musiqi mədəniyyətinin təsiri altında, xalq və klassik vokal ifaçılıq sənətinin qovuşmasında meydana gəlmişdir. Bu istiqamətdə fəaliyyət göstərən müğənnilərin ifaçılıq üslub xüsusiyyətlərində fərqli cəhətlər özünü göstərir ki, bu da əsasən oxuma texnikası ilə bağlıdır: muğam və xalq oxuma sənəti üzərində və klassik vokal sənəti üzərində yetişmiş müğənnilərin oxuma üslublarında Şərq və ya Qərb oxuma ənənələri üstünlük təşkil edir. Estrada sahəsinin daha bir müstəqil qolu özünəməxsus inkişaf yoluna və üslub xüsusiy-

yətlərinə malik caz musiqisi ilə bağlıdır. Müasir dövrdə estrada ifaçılıq sənəti dünya musiqisində yaranmış cərəyanların, üslubların – caz, blüz, pop, rok və s. təsiri altında genişlənərək, rəngarəng xüsusiyyətlər kəsb etmişdir.

**I fəslin ikinci yarımfəsli - 1.2. "Ş.Ələkbərovanın həyat və yaradıcılıq yolu"nun öyrənilməsi ilə bağlıdır.** Görkəmli müğənni Şövkət Ələkbərovanın həyat və yaradıcılığı 1920-1990-cı illər arasında Azərbaycan musiqi mədəniyyətinin inkişafı dövrünə təsadüf etmiş və tarixi mərhələləri ilə bağlı olmuşdur.

Şövkət Ələkbərova 1922-ci il oktyabrın 20-də Bakıda anadan olmuşdur. Valideynləri uşaqlarına musiqi savadı verməyə çalışırdılar. Qızları Şövkətin kamança çalmağa meylini görüb, onu musiqi məktəbində kamança sinfinə yazdırırlar. Yeniyetmə Şövkət ilk dəfə böyük səhnəyə müğənni kimi çıxması Hökumə xanımın tar ifaçısı kimi çıxış etdiyi qadınlardan ibarət xalq çalğı alətləri ansamblında olmuşdur. Bununla onun yaradıcılığının birinci dövrü – müğənni kimi təşəkkülü dövrü başlandı. Özfəaliyyət ansamblının tərkibində çıxış etməsi ona səhnə təcrübəsi qazandırırdı.

1937-ci ildə Bakıda Azərbaycan Respublikası Həmkarlar İttifaqının bədii özfəaliyyət kollektivlərinə baxış keçirildi və Şövkət Ələkbərova həmin baxışın qalibi elan edildi. Bu tədbirin yekun konserti 1938-ci ilin əvvəllərində Opera və Balet Teatrının səhnəsində keçirilirdi. Münsiflər heyətində dövrün ən görkəmli simaları - Üzeyir bəy Hacıbəyli, Bülbül, Səid Rüstəmov və başqaları əyləşmişdilər. Ş.Ələkbərova "Qarabağ şikəstəsi"ni böyük məharətlə ifa etdi. Bu konsertdə gənc müğənnilər Gülağa Məmmədov və Fatma Mehrəliyeva da iştirak edirdi. Onlar sonradan Azərbaycan musiqi mədəniyyətində özünəməxsus layiqli yer tutdular.

Üzeyir bəyin təqdimatı ilə Şövkət Ələkbərova Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının xorunda işə qəbul olunur və Şövkət Ələkbərovanın professional səhnə həyatı başlayır. Ş.Ələkbərova 1938-ci ildən 1945-ci ilə qədər Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və rəqs ansamblının xorunda solist kimi çalışmışdır. 1945-ci ildən müğənni Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının, sonralar isə "Azkonsert"in solisti kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Dövlət Filarmoniyasında çalışdığı dövrdə Ş.Ələkbərova professional ifa tərzinə yiyələnir, xalq və bəstəkar mahnılarını ifa edirdi. Azərbaycan Mahnı və Rəqs Ansamblının konsertlərinə Üzeyir bəy Hacıbəyli özü dirijorluq edirdi ki, bu da gənc müğənnidə böyük şərəf hissi doğururdu. Belə bir böyük şəxsiyyətlə daim təmasda olmaq, onun nəsihətlərini eşitmək gənc müğənni üçün böyük sənət və həyat məktəbi idi. Ş.Ələkbə-

rova xorun solisti kimi həm xalq mahnılarını, həm də bəstəkar mahnılarını böyük şövqlə oxuyurdu.

Ü.Hacıbəylinin tövsiyəsi ilə Ş.Ələkbərova professional musiqi təhsili almaq üçün A.Zeynallı adına Orta ixtisas musiqi məktəbinə (indiki Bakı Musiqi Kolleci) muğam – solo oxuma ixtisası üzrə daxil olur. Burada o, tanınmış opera müğənnisi, aktyor, rejissor, pedaqoq, teatr xadimi, Azərbaycanın xalq artisti Hüseynqulu Sarabskinin sinfində professional vokal dərsləri almışdır. Hüseynqulu Sarabskinin sənətkarlığının əsasını mahir aktyorluq qabiliyyəti, geniş təxəyyülü, məlahətli səsi, dərin musiqi duyumu ilə muğam ifaçılığının qarşılıqlı əlaqələndirilməsi təşkil edirdi. Onun sinfində təhsil alan tələbələr səs imkanlarından geniş istifadə etməklə, gözəl səhnə mədəniyyətinə malik müğənnilər kimi yetişirdi.

Təhsil aldığı illərdə Ş.Ələkbərovanın muğamat müəllimi tanınmış muğam bilicisi, Üzeyir bəyin dayısı Ağalar bəy Əliverdibəyov olmuşdur. Ş.Ələkbərovanın sənətkar kimi yetişməsində Bülbül, Xan Şuşinski, Zülfi Adıgözəlov kimi dövrün görkəmli sənətkarlarının böyük təsiri olmuşdur. Ş.Ələkbərova ustadlarının layiqli davamçısı olaraq, klassik ifaçılıq ənənələrinə sadiq qalmış və onları inkişaf etdirmişdir.

1941-1945-ci illər - Böyük Vətən Müharibəsi dövrü bütün ölkənin həyatını dəyişdi. Azərbaycan musiqisində yeni bir mövzu istiqaməti – hərbi-vətənpərvərlik musiqisi yarandı. Bu dövrdə Şövkət Ələkbərova konsert fəaliyyətini davam etdirərək, həm əsgərlər, həm də zəhmətkeş insanlar qarşısında çıxış edirdi. Onun ifa etdiyi "Qaragilə", "Yaxan düymələ", "Ceyran bala", "Xumar oldum", "Şuşanın dağları", "Qaragöz" və başqa mahnılar Şövkət Ələkbərovanın artıq xalq tərəfindən mahir ifaçı kimi qəbul olunmasına imkan yaratmışdı. Eyni zamanda, bu illərdə Şövkət xanımın repertuarı yenilənir və genişlənir. O, Üzeyir Hacıbəylinin "Şəfqət bacısı", "Addımla əsgər", "Yaxşı yol" və başqa bəstəkarların mahnılarını ifa edirdi.

1944-cü ilin dekabr ayında Tbilisi şəhərində keçirilən Zaqafqaziya respublikalarının musiqi ongünlüyü çox əlamətdar hadisə kimi musiqi tarixinə yazılır. Bir çox ifaçılarla yanaşı, Şövkət Ələkbərova da Azərbaycan bəstəkarlarının vokal əsərlərinin səsləndirilməsində böyük müvəffəqiyyətlə iştirak edir.

1950-ci illərdə Şövkət Ələkbərovanın yaradıcılığında yeni mərhələ başlandı ki, bu da onun yaradıcılığının cicəklənməsi və kamilləşməsi mərhələsi kimi səciyyələndirilə bilər. Şövkət Ələkbərovanın yaradıcılığında çox önəmli olan bu mərhələdə o, xalq və bəstəkar mahnılarının ifaçısı kimi tanınmışdır.

Şövkət Ələkbərova 1954-cü ildə Azərbaycanın Əməkdar artisti və 1959-cu ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdü.

1959-cu ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadası da bütün ölkədə olduğu kimi, Ş.Ələkbərovanın da yaradıcılığında əlamətdar hadisələrdən biri kimi dərin iz qoydu. Belə ki, həmin dekada zamanı Şövkət Ələkbərova öz məharətini Böyük Teatrın səhnəsində göstərdi və müğənninin çıxışları paytaxt tamaşaçılarını valeh etdi.

Bu illər Ş.Ələkbərovanın xarici ölkələrə qastrol səfərləri genişlənir. Şövkət xanım Rusiya, İran, Əfqanıstan, İraq, Əlcəzair, Suriya, Mərakeş, Tunis, Misir, Şri-Lanka, Hindistan, Çin, Türkiyə, Fransa, İsveçrə, İsveç və Almaniya, Bolqarıstan, Polşa və Çexoslovakiya musiqisevərlərini öz bənzərsiz ifasıyla, ecazkar səsi ilə ovsunlamışdı.

Müğənni "Qatar", "Şahnaz", "Segah" muğamlarını özünəməxsus tərzdə ifa edirdi və onlara yeni nəfəs gətirirdi. Şövkət xanım "Qarabağ şikəstəsi", "Süsən sünbül", "Dəli Ceyran", "Ay qadası", "Yar gəldi", "Kürdün gözəli", "Ceyran", "Gül açdı" xalq mahnılarını ifa edərkən dinləyicilər onun kövrək qəlbini, incə duyğularını hiss edirdilər.

Müğənninin repertuarında Azərbaycan bəstəkarlarının əsərləri – "Ay işığında", "Oxu gözəl", "Eşqimdə təmənnasızam", "Tellər oynadı", "Küsüb məndən", "Bir könül sındırmışam", "Bayram şamları", "Durnalar", "Oxu tar", "Getmə amandı", "Şəki", "Bakı gecələri", "Qubalı qız", "Dərələr", "Ağ çiçək" kimi ürəklərdə iz qoyan mahnılar var idi.

Azərbaycan müğənnisi Şövkət Ələkbərova öz repertuarına fars, ərəb, türk və başqa dillərdə oxuduğu mahnıları da daxil etmişdi.

Şövkət xanımın repertuarında olan mahnılarda söz, musiqi və ifa birbirini tamamlayaraq, vəhdət təşkil edirdilər. Elə buna görə də, muğənninin ifa etdiyi mahnılar ilk ifadan dinləyicilərin ürəklərinə yol taparaq yaddaşlarda həkk olunurdular.

Burada bəstəkarların kino musiqisinə daxil etdikləri mahnıların Şövkət Ələkbərovanın ifasında səsləndirilməsini də qeyd etməliyik. Tofiq Quliyevin musiqi yazdığı "Görüş" (1955), "Qızmar günəş altında" (1957), "Ögey ana" (1958), "Onu bağışlamaq olarmı" (1959) filmlərində, Zakir Bağırovun "Aygün" (1960), Cahangir Cahangirovun "Koroğlu" (1960), Rauf Hacıyevin "Kölgələr sürünür" (1958), Niyazinin "Mahnı belə yaranır" (1957), Fikrət Əmirovun "Mücrü" (1973), Arif Məlikovun "İyirmialtılar" (1966) filmlərində xüsusi yer tutan Şövkət Ələkbərovanın ifasında gözəl mahnıların adını çəkə bilərik. Həmin mahnılar ekranda səslənərək geniş

tamaşaçı auditoriyasının rəğbətini qazanmış və ekrandan həyata qədəm qoyaraq, dillər əzbərinə çevrilmişdir.

Ş.Ələkbərovanın səsini və görünüşünü yaşadan bir neçə filmlər də vardır. Bunlardan "Oxuyur Şövkət Ələkbərova" (1970, "Ekran" yaradıcılıq birliyi, rejissor Nurəddin Tağıyev), "Səs" (1988, rejissor M.Ağayev) və s. qeyd etmək olar.

Azərbaycanın radio və televiziyasının qızıl fondunda Şövkət xanımın yarım əsr ərzində oxuduğu misilsiz sənət nümunələri saxlanılır. Həmçinin biz Ş.Ələkbərovanın oxuduğu muğamları, xalq və bəstəkar mahnılarını internet mənbələrindən də izləyirik.

Ş.Ələkbərovanın gördüyü ən mühüm işlərdən biri də gənc nəslin musiqi tərbiyəsi ilə məşğul olması idi. Bu da Şövkət Ələkbərova yaradıcılığının dördüncü dövrünə təsadüf edir. Azərbaycan muğamlarına dərin hörmət bəsləyən və onları qəlbən sevən müğənni bu ehtiram və məhəbbəti gənc nəslə də aşılaya bilmişdi. Böyük müğənni yaradıcı gənc nəslin nümayəndələrində öz gəncliyini görürdü, onların sənət və həyat himayəsinə böyük ehtiyac duyduqlarını çox gözəl bilirdi, doğma balaları kimi sevdiyi tələbələrilə sənət yolunda qazandığı təcrübəsini paylaşırdı. Şövkət xanımın şagirdlərinin böyük müğənni haqqında xatirələri də bunun əyani sübutudur. Bu nəcib xanımın simasında böyüklükdə təkrarı olmayan "ana" və "müəllim" məfhumları cəmləşmişdi. Bu isə çətin olduğu qədər şərəfli idi.

Şövkət Ələkbərova 1993-cü il fevral ayının 7-də vəfat etmişdir.

Ş.Ələkbərovanın təkrarolunmaz gözəlliyə malik səs tembri yaddaşlarda həkk olunmuşdur. Onun yumşaq tembrli səsinin xüsusi məlahəti və qeyri-adi çalarları, ahəngləri vardı. Şövkət xanım səsinin qiymətini bilən, onu qoruyan, öz üzərində işləyən, öz ifaçılıq qabiliyyətini inkişaf etdirən müğənni idi. O, daim sənətini təkmilləşdirməyə çalışaraq, yaradıcılıq axtarışları ilə zəngin bir ömür yaşamışdır. Məhz bu keyfiyyətləri nəticəsində Şövkət xanımın ifaçılıq sənəti böyük bir məktəbə çevrilmişdir.

**Dissertasiyanın II fəsli "Ş.Ələkbərovanın yaradıcılıq irsində xalq mahnı və muğam ifaçılığı" adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.**

**II fəslin birinci yarımfəsli - 2.1. "Xalq mahnılarının ifası" təhlil olunub.** Şövkət Ələkbərova öz repertuarında xalq mahnıları irsinə müraciət edərək, onlara xüsusi bir həssaslıqla yanaşmışdır. Xalq mahnıları Ş.Ələkbərovanın təfsirində, demək olar ki, yeni həyat qazanırdı.

Ş.Ələkbərovanın repertuarında "Qaragilə", "Azərbaycan maralı" ("Qarabağın maralı"), "Ceyran bala", "Xumar oldum", "Şuşanın dağları", "Süsən sünbül", "Dəli Ceyran", "Ay qadası", "Yar gəldi", "Kürdün gözəli",

“Gül açdı”, “Yaxan düymələ”, “Küçələrə su səpmişəm”, “Qadan alım”, “Ay qız kimin qızısan”, “Bülbüllər oxur”, “Gülə-gülə ay xanım”, “Kəklik”, “Qoy gülüm gəlsin ay nənə”, “Ay qara qız getmə dayan”, “Gəl bizə yar”, “Yaylığım”, “Aparmağa gəlmişik” və s. xalq mahnıları mühüm yer tutur. Ş.Ələkbərovanın səsyazıları irsində bu xalq mahnıları qorunub saxlanır.

Lirik xalq mahnılarını ifa edərkən, müğənni ənənəvi ifaçılıq üslubuna əsaslanırdı, mahnıdan əvvəl müvafiq muğam şöbəsini səsləndirirdi. Bu cəhətdən Ş.Ələkbərovanın ifasında lirik xalq mahnısı təsnifə yaxın xüsusiyyətlər kəsb edir. Bu qəbildən mahnıları Ş.Ələkbərova oxuduğu muğamlara təsnif əvəzinə daxil etmişdir.

Ş.Ələkbərovanın repertuarında duet mahnılar da yer almışdır. Səs yazılarında “Yaylığım”, “Ay gözəl” xalq mahnılarının duet şəklində Xan Şuşinski və Şövkət Ələkbərova tərəfindən ifa olunması dinləyiciyə zövq verir. Musiqi ifaçılığında bu mahnının duet şəklində ifası ənənəvi hal almışdır.

Ş.Ələkbərova digər mahnı növlərinə də müraciət etmişdir. Məsələn, “Aparmağa gəlmişik” – toy mərasim mahnısı, “Ellərə də ver” – məişət mahnıları qismindən olan oxşama bu qəbildəndir. Ş.Ələkbərova unudulmaqda olan bu qədim xalq mahnılarını bərpa edərək, onları dirçəltmişdir. Bu baxımdan onu Bülbülün davamçısı adlandırmaq olar.

Ş.Ələkbərova muğam və xalq mahnılarını əsasən xalq çalğı alətləri ansamblının müşayiəti ilə ifa etmişdir. Ş.Ələkbərova Şərq oxuma ənənələrinə əsaslanan bir müğənni olsa da, simfonik orkestrin müşayiəti ilə oxuduğu bir sıra nümunələr lent yazılarında qorunmuşdur. Xüsusilə, “Qaragilə” xalq mahnısının işləməsinin Niyazinin dirijorluğu ilə simfonik orkestrin müşayiətində səsləndirməsi misilsiz ifaçılıq təfsiridir.

“Qaragilə” lirik xalq mahnısı əsasən xanəndələrin repertuarında yer tutur, xanəndələr tərəfindən bu mahnı həm muğam üçlüyünün, həm də xalq çalğı alətləri ansamblının müşayiətilə ifa olunur. Ş.Ələkbərova isə bu mahnını böyük səhnəyə gətirən ilk müğənni olmuşdur.

“Qaragilə” mahnısının Niyazinin işləməsində özünəməxsus keyfiyyətləri diqqəti cəlb edir. Niyazi mahnını iri həcmli konsert əsəri kimi şərh etmişdir. Bəstəkar xalq mahnısını qəlbin lirik etirafı kimi təqdim edir, öz daxili dünyasını təcəssüm etdirir. Ş.Ələkbərovanın ifasında bu cəhət xüsusilə qabarıq təzahür edir. Müğənninin səs tembri, sözləri bədii diksiya ilə ifadə etmək bacarığı, musiqi intonasiyasını dərindən hiss edərək, qəlbində yaşadaraq, onu dinləyiciyə çatdırmaq məharəti sayəsində xalq mahnısı böyük bədii-estetik təsir qüvvəsi kəsb edir. Solo vokal partiyanın orkestrlə uzlaşdırılması, səsin orkestr alətləri ilə dialoqda verilməsi, möhtəşəm bir kompo-

zisiyanın yaranması ilə nəticələnmişdir.

"Azərbaycan maralı" mahnısı geniş yayılmış və çox sevilən lirik xalq mahnılarındandır. Ş.Ələkbərova bu mahnını "Şahnaz" muğamının tərkibində, "Dilkəş" şöbəsindən sonra oxuyurdu ki, bu da muğam ifaçılığında kök salmış ənənəyə uyğundur. Həmçinin, müğənninin repertuarında ayrıca olaraq bu mahnının "Azərbaycan maralı" və "Qarabağın maralı" adlı variantlarına rast gəlirik. Mahnının göstərilən variantlarının müqayisəsindən aydın olur ki, onların poetik məzmunu oxşar olsa da, əsas fərq hər misranın sonunda təkrarlanan və mahnının adına çıxarılan sözlərlə (Azərbaycan maralı – Qarabağın maralı) bağlıdır.

Mahnının mövzusu müğənni tərəfindən həzin səslə, təmkinlə oxunur. Hər iki xanəlik frazaların əvvəlində verilən çərək pauzanı müğənni çox qabartmayaraq, onu yumşaltmağa və frazalar arasında axıcı keçidlər yaratmağa çalışır. Frazaların sonundakı enən triollu hərəkət isə bir qədər ləng ifa olunur və melodiyanın ahəstə yekunlaşmasına xidmət edir.

Ş.Ələkbərovanın repertuarındakı maraqlı nümunələrdən biri də "Xumar oldum" mahnısıdır. Mahnı lirik xarakterlidir, obrazlı məzmunu qabarıqdır, gənc qıza aşiqi tərəfindən müraciətlə oxunur. Müğənninin ifasında bu mahnının melodik gözəlliyi, təsviri xarakteri ilə qovuşdurularaq, obrazın qabarıq əks olunmasına şərait yaradır. Müğənninin ifasındakı axıcılıq, musiqi cümlələrinin, frazaların ardıcıllığını, bir-birinə bağlılığını təmin edir. Melodik inkişafda özünü göstərən məqam yönəlmələrini müğənni çox incəliklə səsləndirir, səslərin uzadılması vasitəsilə məqam çalarlarının dəyişilməsinə nail olur. Xüsusilə "xumar oldum" sözlərinin oxunması zamanı məqam-intonasiya boyaları ahəngdar şəkildə üzə çıxır.

**II fəslin ikinci yarımfəslində - 2.2. "Muğam və zərbi-muğamların ifası" təhlil olunur.** Ş.Ələkbərovanın repertuarında muğamların ifası xüsusi yer tuturdu. Müğənni muğamları dəstgah şəklində ifa etməklə yanaşı, həmçinin, onların ayrı-ayrı şöbələrinin ifasına üstünlük vermiş, oxuduğu mahnıya uyğun muğam şöbələrindən istifadə etmişdir. Müğənni "Mirzə Hüseyn Segahı", "Şahnaz", "Qatar" muğamlarını, "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə" zərbi-muğamlarını özünəməxsus tərzdə ifa edərək, həmin muğamların ənənəvi ifaçılıq xüsusiyyətlərini yeni cizgilərlə təfsir etmişdir.

Ş.Ələkbərovanın oxuduğu "Mirzə Hüseyn Segahı" muğamın ənənəvi quruluşunu saxlamaqla, maraqlı təfsir xüsusiyyətləri ilə yadda qalır. Belə ki, Ş.Ələkbərovanın təfsirində "Mirzə Hüseyn Segahı" bəm registrdə dolğun və təsirli, zil registrdə həzin və incə səslənir. Müğənni oxuduğu hər bir sözün mənasını dərindən duyaraq, onu dinləyiciyə çatdırmağa çalışır. Bu halda söz

və musiqi intonasiyasının vəhdəti qabarıq təzahür edir. Muğam improvizasiyasından asılı olaraq, müğənninin səsinin tembr çalarları bəmdən zilə doğru aramla açılır. Müğənni muğamın bütün şöbələrini ifa edərək, onu emosionallıqla yekunlaşdırır. Demək olar ki, "Mirzə Hüseyn Segahı" Ş.Ələkbərovanın ifasında bir nəfəsə ifa olunan vahid kompozisiya kimi səslənir.

Ş.Ələkbərova "Şahnaz" muğamının ifası yüksək zirvədən, tar və kamançanın improvizasiyası ilə başlanır. Girişdən sonra vokal partiya da ansambla qoşulur, muğamın əsas mövzusunu avazla zildə ifa edir. "Şahnaz" muğamında "Dilkəş" şöbəsi bəmdə oxunur, muğamın orta bölməsini təşkil edir. Ş.Ələkbərovanın ifasında şöbəsinin ifasında həzinliyə, lirik çalarlara xüsusi diqqət yetirilir. Ş.Ələkbərova "Dilkəş" şöbəsindən sonra "Azərbaycan maralı" xalq mahnısını ifa etmişdir. "Zil Şahnaz" - "Şahnaz" muğamının ən yüksək tessituraya malik şöbəsidir. Müğənni bu şöbəni şaqraq zəngulələrlə ifa edərək, coşqun əhval-ruhiyyə ilə muğamı bitirir.

"Qatar" muğamında Ş.Ələkbərovanın "Zil Qatar" şöbəsini oxuması zildə "Könlüm düşdü qan oduna, a balam" sözləri ilə başlanır. Bu şöbə gümrah xarakterli olub, şaqraq zəngulələrlə, yüksək səs tessiturasında ifa olunur. "Mayeyi-Qatar" şöbəsi muğamın zil şöbələrinə nisbətən həcminə görə daha genişdir və bəmdə ifa olunması ilə təzadlıq təşkil edir. Bu şöbədə müğənni Füzulinin "Tutuşdu qəm oduna şad gördüyün könlüm" sözləri ilə başlanan qəzəldən istifadə edir. "Mayeyi-Qatar" ağır tempdə, aramlı tərzdə ifa olunur. "Zil Qatar" yüksək tessituralı şöbə olub, dinamik, coşqun əhval-ruhiyyə ilə muğamın ifasını tamamlayır.

Ş.Ələkbərova öz repertuarında zərbi muğamlara və şikəstələrə daha çox yer verirdi. Onun ifasında "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə" musiqi irsimizə misilsiz sənət nümunələri kimi daxil olmuşdur. Milli musiqi irsində "Kəsmə şikəstə"nin ən gözəl ifaçıları kimi tanınmış Fatma Mehrəliyevanın və Şövkət Ələkbərovanın ifaçılıq təfsirləri geniş yayılmışdır. Bu variantlar ilk növbədə, mətn əsasına görə fərqlənir, xanəndələr şikəstənin ənənəvi kompozisiyası və oxuma xüsusiyyətləri çərçivəsində müxtəlif bayatılardan istifadə etmişlər.

Fatma Mehrəliyevanın ifasında "Kəsmə şikəstə"nin sözləri belə başlanır: "Əzizinəm, a balam, qadan sevgilim, Demə ki, adə balam, Sənə yadam sevgilim..."

Şövkət Ələkbərovanın ifaçılıq variantında "Kəsmə şikəstə"nin vokal partiyasının mətni bu sözlərlə başlanır: "Əzizinəm, a balam, uludur. Axar çaylar, anam qurban, qurudu…".

Fatma Mehrəliyeva ilə Şövkət Ələkbərova eyni dövrdə ifaçılıq sənə-

tinə gəlmiş, demək olar ki, eyni ustadların ənənələrindən bəhrələnmişlər. Lakin onların oxuduqları muğamlar, xüsusilə də "Kəsmə şikəstə" müxtəlif təfsir xüsusiyyətləri ilə fərqlənir. Hər iki xanəndənin ifaçılıq təfsiri müasir xanəndələr tərəfindən davam etdirilir.

Şövkət Ələkbərovanın ifaçılıq təfsiri Aygün Bayramovanın, Şahnaz Haşımovanın, Bəyimxanım Mirzəyevanın, Zeynəb Behbudovanın ifasında öz əksini tapmışdır. Xanəndələrin oxuduğu fərqli bayatılara əsaslanan mətnlərin əhval-ruhiyyəsi musiqi məzmununda öz əksini tapır. Lakin xanəndələrin ifasında ümumi cəhətlər də var ki, bu da kompozisiyanın quruluşu, musiqi məzmunu, eləcə də ümumi vokal-instrumental tərtibatı ilə bağlıdır.

Ş.Ələkbərovanın ifasında "Kəsmə şikəstə"nin təfsiri maraqlı keyfiyyətlərə malikdir. "Kəsmə şikəstə"nin başlıca xüsusiyyəti onun melodik quruluşudur. Adına uyğun olduğu kimi, melodik ibarələrin kəsik-kəsik oxunma tərzinin üstünlük təşkil etdiyinə baxmayaraq, müğənni tərəfindən melodiya özünəməxsus, uzun nəfəslə, axıcı, təsirli surətdə ifa olunur. Eyni zamanda, ifaçı melodiyanın oxunmasını ansamblın ritmik fonunda müəyyən çərçivə daxilində icra etdiyinə görə, hecaların zaman daxilində bölgüsünə də fikir verir. Beləliklə, xanəndənin ifaçılıq xüsusiyyətləri ansamblla qarşılıqlı olaraq üzə çıxır. Ümumilikdə isə müğənninin səs tembri, ifa tərzi onun oxuduğu "Kəsmə şikəstə"ni yaddaqalan edir.

Beləliklə, Ş.Ələkbərovanın ifasında xalq mahnılarının, muğamların və zərbi muğamların ifaçılıq xüsusiyyətlərinin araşdırılması müğənninin ənənəvi musiqi irsinə özünəməxsus yaradıcı münasibətini üzə çıxarır. Onun ifaçılıq təfsiri müğənnilər tərəfindən mənimsənilərək davam etdirilmiş və ənənə halını almışdır.

**Dissertasiyanın III fəsli "Ş.Ələkbərovanın təfsirində bəstəkar əsərlərinin ifaçılıq xüsusiyyətləri" adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.**

**III fəslin birinci yarımfəsli - 3.1. "Bəstəkar mahnılarının üslub xüsusiyyətləri və ifaçılıq təfsiri" təhlil olunub.**

Ş.Ələkbərova XX əsrin ikinci yarısında Azərbaycan bəstəkarlarının mahnı janrında yazdıqları əsərlərin əksəriyyətinin ilk və ən parlaq ifaçısı olmuşdur. Üzeyir Hacıbəyli, Səid Rüstəmov, Cahangir Cahangirov, Tofiq Quliyev, Hacı Xanməmmədov, Süleyman Ələsgərov, Qənbər Hüseynli, Zakir Bağırov, Fikrət Əmirov, Ağabacı Rzayeva, Şəfiqə Axundova, Ramiz Mirişli, Emin Sabitoğlu, Vasif Adıgözəlov, Polad Bülbüloğlu, Elza İbrahimova, Oqtay Kazımov kimi müxtəlif nəsillərə aid bəstəkarların mahnılarını böyük məharətlə ifa etmişdir. Bu mahnıları oxuyarkən onun ifaçılıq təfsiri, tapdığı ştrixlər, yaratdığı obrazlı məzmun və əhval-ruhiyyə həmin

mahnının digər ifaçıları üçün də bir örnəyə, ənənəyə çevrilmişdir.

Ş.Ələkbərovanın yaradıcılığında xalq üslubunda bəstəkar mahnıları mühüm yer tutur. Məsələn, Cahangir Cahangirovun "Qarabağ" mahnısının quruluş xüsusiyyətlərində xalq mahnısından gələn cəhətlər diqqəti cəlb edir. Mahnı kuplet-nəqarət formasındadır, bayatı-şiraz məqamına əsaslanır. Müğənni kvarta çərçivəsinə sığışan melodik gedişləri tələsmədən, eyni zamanda, ruh yüksəkliyi ilə ifa edərək, onun hər bir notunun aydın və ifadəli səslənməsinə nail olur. Hər bir gedişin başlanğıcını müğənni yeni nəfəslə, rəngarəng səs çalarları ilə səsləndirərək, melodik təkrarlanmanı bir qədər pərdələməyə, onlara yeni boyalar qatmağa çalışır. Müğənni nəqəratın başlanğıcında "Cənnətim" sözünün oxunmasını bir qədər uzadaraq, fermatoya yer verir. Bununla o, sanki daxilindəki sevgi və qürur hisslərini bəyan edir. Mahnının sonunda geniş diapazonda melodiyanın enən sekvensiyalı hərəkəti mayədə tamamlanır. Bu kimi passajları bir nəfəsə oxuyan müğənninin ifası eyni zamanda, səsindəki melizmlərlə dolğunlaşır. Beləliklə, müğənni oxuduğu bu lirik və oynaq xarakterli mahnı ilə doğma diyarımızın ən gözəl guşələrindən biri olan Qarabağın şən, firavanlıq dolu mənzərəsini yaratmağa nail olur. "Qarabağ" bu sənətkarların xatirəsində Vətənimizin gözəl, bəxtiyar bir guşəsi kimi qalaraq, bu gün düşmən tapdağı altında olan doğma torpaqlarımızla bağlı nostalji hissləri oyandırır, insanlarda həmin torpaqlara qayıtmaq əzmini yaradır.

Şövkət Ələkbərovanın yaradıcılığında lirik mahnılar xüsusi yer tutur. Müğənninin öz xarakteri və siması ilə həmahəng olan lirik mahnılar Ş.Ələkbərovanın ifaçılıq üslubunun əsas cəhətlərindən biri olmuşdur. Xalq üslubunda yazılmış lirik mahnılar Səid Rüstəmovun, Hacı Xanməmmədovun, Cahangir Cahangirovun, Ramiz Mirişlinin və digər bəstəkarların yaradıcılığında mühüm yer tutur. Ş.Ələkbərova bu mahnıların əksəriyyətinə öz repertuarında müraciət etmişdir.

Ş.Ələkbərovanın ifasında S.Rüstəmovun "Hardasan", "Oxu gözəl", F.Əmirovun "Kor ərəbin mahnısı", "Gülərəm gülsən", "Laylay, C.Cahangirovun "Ana", "Bayram şamları", Şəfiqə Axundovanın "Şəki", "Yaradan əllər" kimi mahnıları hələ də yaddaşlarda yenilənir.

Müğənni hər mahnını özünəməxsus tərzdə ifa etmişdir. Bu mahnıların aparıcı xəttini lirika təşkil edir. Müğənni lirik hissləri dərindən duyaraq, öz ifasında dinləyiciyə çatdırmağa nail olmuşdur. Məsələn, S.Rüstəmovun "Alagöz" mahnısındakı məlahətlilik, sadəlik, oxunaqlı, ifadəli intonasiyalarla şən əhval-ruhiyyə yaradır. "Hardasan" mahnısının melodiyasını müğənni muğam melodiyasına yaxın tərzdə oxuyur, ehtiraslı, həyəcanlı

melodiyaya malik mahnıda improvizasiyadan geniş istifadə edir. Bütün bunlar müğənninin yaradıcılığında lirik xarakterli mahnı ifaçılığı ənənələrinin formalaşmasını nümayiş etdirir.

Ş.Ələkbərovanın ifaçılıq üslubunda bir sıra bəstəkar mahnılarının ifası zamanı muğam parçalarına müraciət etməsi geniş tətbiq olunur. Təsnif ifaçılığından gələn bu ənənə bəstəkar yaradıcılığına da öz təsirini göstərmişdir və səslənməyə rəngarənglik gətirir. Bu baxımdan ən parlaq nümunə Emin Sabitoğlunun Nəbi Xəzrinin sözlərinə yazdığı "Dərələr" mahnısı ola bilər.

Estrada üslubunda yazılmış mahnıların da özünəməxsus cəhətlərini səciyyələndirərkən, Tofiq Quliyevin mahnılarına müraciət etmişik. T.Quliyevlə Ş.Ələkbərovanın yaradıcılıq ünsiyyətindən musiqi irsimizi zənginləşdirən gözəl və rəngarəng mahnılar yaranmışdır. Ş.Ələkbərova bəstəkarın ayrı-ayrı mahnılarının ilk ifaçısı olmuş, eyni zamanda, onun kinofilmlərə yazdığı mahnıları ifa etmişdir. Həmin mahnılar məhz Ş.Ələkbərovanın səsi və ifasında sevilərək, ekrandan həyata, geniş səhnəyə və müğənnilərin repertuarına daxil olmuşdur. Bu baxımdan, "Onu bağışlamaq olarmı?", "Görüş" və s. kinofilmlərdən "Əziz surət", "Axşam mahnısı", "Lirik mahnı" və s. bu kimi Ş.Ələkbərovanın ifa etdiyi mahnılar bu gün müğənnilərin konsert repertuarının daimi proqramını təşkil edir.

Qeyd etməliyik ki, estrada üslubunda yazılmış bəstəkar mahnılarının özünəxas cəhətləri vardır ki, bunlar Ş.Ələkbərovanın ifaçılıq təfsirində öz əksini taparaq, mahnının ənənəvi ifa üslubuna çevrilmişdir. Burada mahnının musiqi xüsusiyyətləri ilə yanaşı, onun müşayiəti də böyük rol oynayır və obrazın açılmasında iştirak edir. T.Quliyevin və digər bəstəkarların estrada üslubunda yazılmış mahnılarını Ş.Ələkbərova estrada orkestrinin və ya fortepianonun müşayiətilə ifa etmişdir.

Beləliklə, Ş.Ələkbərovanın ifaçılıq təfsirində xalq və estrada üslubunda yazılmış bəstəkar mahnılarının araşdırılması onların musiqi dilinin başlıca xüsusiyyətlərini xarakterizə etməyə və ifaçılıq cəhətlərini araşdırmağa imkan verir.

**III fəslin ikinci yarımfəslində - 3.2. "Azərbaycan bəstəkarlarının vokal-instrumental musiqi əsərlərinin ifasında Ş.Ələkbərovanın rolu" təhlil olunur.** XX əsrin ikinci yarısında Ş.Ələkbərovanın bir ifaçı kimi yaradıcılığına yeni janrlar daxil olur. Müğənni Azərbaycan bəstəkarlarının klassik musiqi janrlarına əsaslanan vokal-instrumental əsərlərinin ifasında çıxış edir. Bu baxımdan Cahangir Cahangirovun "Füzuli" kantatasını qeyd etməliyik.

C.Cahangirovun "Füzuli" kantatası musiqi məzmunu və quruluşu baxımdan muğamlarla bağlı olmaqla, ifaçılıq təfsiri baxımından da bir sıra

cəhətləri özündə cəmləşdirir. C.Cahangirov "Füzuli" kantatasını yaradarkən, əsərin ikinci hissəsində solistin partiyasını vokal ifaçısına deyil, muğam ifa üslubuna və yumşaq səs tembrinə malik müğənni üçün nəzərdə tutmuşdu və bu partiyanı məhz Şövkət Ələkbərovaya həvalə etmişdi. "Füzuli" kantatasının ikinci hissəsində Ş.Ələkbərovanın səsi ecazkar tembr boyaları kəsb edirdi. Müğənni sanki xəyallar aləminə dalaraq, Füzulinin poetik dünyasından və muğam aləmindən süzülüb gələn, bəstəkar təfəkküründə heyranedici bir vəhdətdə üzə çıxan melodiyanı bütün melizmləri və incəlikləri ilə göstərərək, təfsir edirdi. Şövkət Ələkbərovanın özünün ifa manerası ilə bəstəkarın yaratdığı musiqinin obrazlı məzmununu ən xırda cizgilərinə qədər, özünəməxsus ifaçılıq ştrixlərilə dərindən açmağa nail olur, dinləyicinin xəyallarını qanadlandırılırdı.

Kantatanın ilk ifasından bəstəkarın müğənni seçiminin düzgünlüyü öz təsdiqini tapdı və bu, bir ənənəyə çevrildi. Hal-hazırda da kantatanın ikinci hissəsində əsasən qadın muğam ifaçıları solist qismində çıxış edirlər. Son illərdə xüsusilə Aygün Bayramovanın, Bəyimxanım Mirzəyevanın bu partiyanı ifa etməsi maraqla qarşılanır.

Şövkət Ələkbərovanın ifaçılıq təfsiri ilə bağlı daha bir vokal-instrumental əsəri qeyd etmək istəyirik ki, bu da Ramiz Mirişlinin "Oxu tar" kompozisiyasıdır. Mahnının əsasını görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin "Tar" şeiri təşkil edir.

R.Mirişlinin "Oxu tar" mahnı-balladası ilk dəfə müğənnilər Şövkət Ələkbərova və İslam Rzayevin ifasında, tar, xor və xalq çalğı alətləri ansamblının müşayiətilə ifa olunmuşdur. Bu kompozisiyanın daha bir ifaçılıq təfsiri xanəndələr Alim Qasımov və Fərqanə Qasımoya məxsusdur. Son illərə aid bu ifanın video yazısında solist tarzən Firuz Əliyev və dirijor Rauf Abdullayevin rəhbərliyi ilə Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edir. Bu iki səs yazısının müqayisəsi əsasında deyə bilərik ki, Şövkət Ələkbərova və İslam Rzayev dueti əsəri daha klassik tərzdə, müəllif mətninə uyğun ifa etmişlər. Alim Qasımov və Fərqanə Qasımova dueti muğamvari ifa tərzinə üstünlük verirlər. Solistlərin və tarın muğam ifası simfonik orkestrin və xorun fonunda səslənir.

Beləliklə, Ş.Ələkbərovanın yaradıcılığında bəstəkar əsərlərinə müraciət üslub xüsusiyyətləri baxımından bir neçə aspektdə nəzərdən keçirilərək, onun xalq, esttrada və klassik ifa tərzindəki əsərlərin təfsiri zamanı maraqlı cəhətlər üzə çıxarılmışdır.

**Dissertasiyanın Nəticə bölməsində tədqiqata yekun vurulur.** Ş.Ələkbərova musiqi mədəniyyəti tarixinə geniş və çoxaşxəli yaradıcılığa malik sə-

nətkar kimi daxil olmuşdur. Ş.Ələkbərovanın bir müğənni kimi sənətinin qaynaqları dərin və çox şaxəlidir. O, Azərbaycan xanəndəlik sənətinin ənənələri ilə sıx bağlıdır. Eyni zamanda, estrada musiqisinin üslub xüsusiyyətlərini mənimsəmiş və bu iki xətti öz yaradıcılığında qovuşdura bilmişdir.

Ş.Ələkbərova bir müğənni kimi, musiqinin bir çox janrlarında qüvvəsini sınamışdı. O, muğam dəstgahları və təsnifləri, xalq mahnılarını, eləcə də bəstəkarların mahnılarını və romanslarını, solist, xor və orkestr üçün yazdığı kantataları eyni dərəcədə yüksək peşəkarlıqla oxuyurdu. Janr müxtəlifliyinə, hər janrın özünəməxsus ifa manerası tələb etməsinə baxmayaraq, o, bu çətin işin öhdəsindən bacarıqla gəlirdi.

Xalq və bəstəkar mahnılarının ifası zamanı Ş.Ələkbərovanın səsində muğamdan gələn intonasiya sərbəstliyi və axıcılıq özünü göstərir. O, səsinin əlvan boyaları ilə ifa etdiyi musiqinin gözəlliyini daha da rövnəqləndirirdi. Səsindəki müstəsna tembrlə yanaşı, oxumağın, muğam ifaçılığının qanunlarına düzgün əməl edir, səsini necə idarə etməyi bacarırdı. Bu da müğənniinin intellektual səviyyəsini, ümumi mədəniyyətini göstərən amillərdəndir.

Ş.Ələkbərova klassik muğam ifaçılarına xas olan ən yaxşı keyfiyyətləri özündə birləşdirən və musiqi sənətimizi yeni ifa manerası ilə zənginləşdirən müğənnidir. Dinləyicinin daxili aləminə nüfuz edərək onda güclü emosional təsir yaratmaq bacarığı, musiqinin qanunauyğunluqlarına bələd olması və incə musiqi duyumu Ş.Ələkbərovanın sənətini fərqləndirən mühüm xüsusiyyətlərdən idi.

Ş.Ələkbərovanın bəstəkar mahnılarının ifaçılıq üslubundan danışarkən, qeyd etmək lazımdır ki, o, ifa etdiyi əsərlərdə - mahnı, romans və s. yüksək bədii ustalıqla və qeyri-adi dəqiqliklə məna vurğularını qabardır, müəllif düşüncəsinin dərin qatlarını aça bilir və yaratdığı obrazı canlandırmağı bacarırdı. Onun ifa edərək yaratdığı hər bir mahnı sənət incisinə çevrilirdi.

Ş.Ələkbərova ifa etdiyi hər bir əsəri öz yaradıcılıq süzgəcindən keçirərək, onu öz ifaçılıq üslubuna uyğunlaşdırırdı. Müğənni istər bəstəkar əsərlərinə müraciət edərkən, istərsə də yaddaş vasitəsilə şifahi ənənəli musiqi nümunələrini, eləcə də digər xalqların musiqisini mənimsəyərkən, musiqi və məzmunu vəhdət halında öz səs imkanları, diksiyası, mimikası, hərəkətləri, səhnə davranışı vasitəsilə dinləyiciyə çatdırmağa nail olurdu. Beləliklə də onun ifa etdiyi vokal əsərlərin məzmunu, mənası, mahiyyəti, dramaturji inkişaf xətti aydın şəkildə özünü büruzə verirdi.

Müğənninin ifaçılıq üslubunun xüsusiyyətləri bir-birilə qarşılıqlı əlaqədə və təmasda olaraq, onun bənzərsiz yaradıcılıq dəst-xəttini əmələ gətirir. Ş.Ələkbərovanın yaradıcılığında küll halında üzə çıxan bütün bu ifaçılıq

xüsusiyyətləri ondan sonra digər müğənnilər tərəfindən mənimsənilərək, genişləndirilmiş və inkişaf etdirilmişdir. Bu gün ifaçılıq metodikasından bəhs edərkən, Ş.Ələkbərovanın adı xüsusi qeyd olunmalı, onun ifaçılıq ənənələri dərindən öyrənilməlidir. Yalnız bu yolla biz həm Ş.Ələkbərovanın sənətini dərindən dərk edib, musiqimizin üfüqlərini genişləndirə bilərik.

Şövkət xanım Ələkbərovanın yaradıcılığı Azərbaycanın musiqi ifaçılığına böyük bir töhfədir. O, Azərbaycan musiqi mədəniyyəti tarixində bir dərin iz qoymuşdur. Nəsillər dəyişsə də, Şövkət xanıma və onun ifaçılıq irsinə olan sevgi və pərəstiş dəyişməz olaraq qalır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Şövkət Ələkbərovanın Azərbaycan musiqi mədəniyyətində rolu. / Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları. Bakı-2012. s. 74.
2. Şövkət Ələkbərova yaradıcılığına nəzər. // "Mədəni həyat" ("Mədəni-maarif işi") jurnalı, № 11 (261) 2012. s. 65-67.
3. Şövkət Ələkbərovanın təfsirində bəstəkar mahnılarının ifaçılıq xüsusiyyətləri. // "Harmony" Международный музыкальный култорологический журнал. № 13/2014.
4. About the performing style of Shovkat Alakbarova. /" IX. International Turkic culture, art and protection of cultural heritage symposium/Art Activity" Verona-Italy 07-11 September 2015
5. Klassik vokal-instrumental musiqi janrlarının ifasında Şövkət Ələkbərovanın rolu. // "Harmony" Международный музыкальный култорологический журнал. № 14/2015.
6. Şövkət Ələkbərovanın muğam ifaçılıq xüsusiyyətləri. // "Harmony" Международный музыкальный култорологический журнал. № 15/2016.
7. Şövkət Ələkbərovanın repertuarında xalq mahnılarının təfsiri. // "Musiqi dünyası" jurnalı. 3/68 2016. s. 88-89.
8. Исполнительское мастерство выдающейся певицы Азербайджана Шовкета Алекперовой // "Поиск" Международный научный-приложение республики Казахстан № 4 (1) / 2016 s. 29-31.
9. Müğənni Şövkət Ələkbərovanın yaradıcılıq üslubu. / "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri". XV Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2016. s. 87-88.

**Камаля Рауф гызы Гулиева**

**«Роль Шовкет Алекперовой в развитии вокального искусства Азербайджана»**

## РЕЗЮМЕ

Диссертация посвящена изучению исполнительского стиля выдающейся азербайджанской певицы Шовкет Алекперовой. В диссертации дается характеристика оригинального творческого почерка певицы, соединивший в себе мугамный, народный и композиторский эстрадный стили, которые проявляются в тесной взаимосвязи в исполнительском искусстве Ш.Алекперовой. В диссертации дается исполнительский анализ азербайджанских народных песен и мугамов, а также композиторских песен из репертуара Ш.Алекперовой.

Диссертация состоит из введения, 3-х глав, заключения и библиографии.

**I глава – «Роль и значение Шовкет Алекперовой в Азербайджанской музыкальной культуре XX века»** - состоит из двух разделов: **1.1. – «Особенности развития вокального искусства XX века»**; **1.2. – «Жизненный и творческий путь Ш.Алекперовой»**.

**II глава** диссертации – **«Исполнительские особенности народных песен и мугамов в творческом наследии Ш.Алекперовой»** - состоит из двух разделов: **2.1. – «Исполнительство наролных песен»**; **2.2. – «Исполнительство мугамов и зерби-мугамов»**.

**III глава** диссертации – **«Исполнительские особенности композиторских произведений в интерпретации Ш.Алекперовой»** - состоит из двух разделов: **3.1. – «Стилевые ченты и исполнительская интерпретация композиторских песен»**; **3.2. – «Роль Ш.Алекперовой в исполнительстве вокально-инструментальных произведений азербайджанских композиторов»**.

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа.

**Kamala Rauf Guliyeva**

## "The role of Shovket Alekperova in the development of the vocal art of Azerbaijan"

## SUMMARY

The thesis is devoted to the study of the performing style of prominent Azerbaijani singer ShovketAlekperova. In the thesis the characteristic of the original creative style of the singercombining in itself the mugham, folk and variety songwriting styles that are manifested in close relationship in the performing arts of Sh.Alekperova. The thesis gives the analysis of performing Azerbaijani folk songs from the repertoire of Sh.Alekperova.

The dissertation consists of introduction, 3 chapters, the conclusion and the bibliography.

**I chapters - "The role and importance of Shovket Alekperova in the Azerbaijani musical culture of the twentieth century"** - consists of two sections: **1.1. - "Features of the development of vocal art of the twentieth century"**; **1.2. - "The life and creative path of Sh. Alekperova."**

**II chapter - "The Performance Characteristics of Folk Songs and Mughams in the Creative Heritage of Sh. Alekperova"** - consists of two sections: **2.1. - "Performing of folk songs"**; **2.2. - "Performing of Mugams"**.

**III chapter - "The Performance Characteristics of Compositions in the Interpretation of Sh. Alekperova"** - consists of two sections: **3.1. - "Style Pieces and Performing Interpretation of Composer Songs"; 3.2. - "The role of Sh.Alekperova in the performance of vocal-instrumental works of Azerbaijani composers"**.

In **conclusion** is given inference and generalisations of musical analysis.

Çapa imzalanıb: 23.04.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

***На правах рукописи***

**КАМАЛЯ РАУФ гызы ГУЛИЕВА**

# РОЛЬ ШОВКЕТ АЛЕКПЕРОВОЙ В РАЗВИТИИ ВОКАЛЬНОГО ИСКУССТВА АЗЕРБАЙДЖАНА

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по искусствоведению**

**Баку – 2018**